# Dini təsəvvürlərin empatiyaya təsiri

**Gülşən Xeybər qızı Tapdıqova**
*Xəzər Universiteti*
**E-mail:** Gulshan2122@mail.ru

**Rəyçilər:** dos. İ.M. Məmmədli
psixol.ü.f.d. Ş.R. Aslanova

**Açar sözlər:** empatiya, həyat, din, münasibətlər, sevmək, empatik ünsiyyət, dini dəyərlər
**Ключевые слова:** эмпатия, жизнь, религия, отношения, любовь, эмпатическое общение, религиозные ценности
**Key words:** empathy, life, religion, relationships, love, empathic communication, religious values

Bu araşdırma empatiya və dindarlıq arasındakı əlaqəni ortaya çıxarmaq üçün aparılıb. Psixoloji olduğu kimi dini anlayış kimi də qəbul edilən empatiyanın təkcə insan-insan münasibətlərində deyil, bütün varlıqlarla münasibətlərdə də səmərəli istifadə edilməsi lazım olan bir ünsiyyət forması kimi qəbul edilir.

Yalnız emosional cəhəti vurğulanaraq edilən təriflərdə "fərdin qarşıdakı insanın hiss etdiklərini hiss etmə qabiliyyəti" olaraq empatiya adlandırılır. Empatiya insanın qarşısındakı obyekt üzərində özünü əks etdirməsi, onun içində hiss etməsi və bu yolla həmin obyekti mənimsəyərək anlaması prosesidir (2, s. 30).

Empatiya münasibətlərimizi müsbət hala gətirmək, münaqişələrimizi həll etmək, düzgün başa düşmək və başa düşülmək üçün həyatımızda tez-tez rastlaşdığımız bir anlayışdır. Fərd olaraq qayğı göstərmək, dəyərli olmaq və münasibətlərimizdə özünü yaxşı hiss etmək ən vacib ehtiyaclarımız arasındadır. Bu ehtiyacı ödəmək üçün başqaları tərəfindən düzgün başa düşülməli, buna nail olmaq üçün isə özümüzü başqalarına ən yaxşı şəkildə izah etməyi bacarmalıyıq. Bu vəziyyəti nəzərdən keçirdikdə görürük ki, buna nail olmağın yolu empatik yanaşmanı bilmək və istifadə etməkdir.

Empatiya sadəcə olaraq özünü başqasının yerinə qoymaq, düşünmək, onun hiss və duyğularını anlamaq və bunu qarşıdakı insana söyləmək kimi müəyyən edilə bilər. Empati qurmaqda önəmli olan insanın qarşıdakı insanın hiss və düşüncələrini düzgün başa düşməsi və şərh etməsidir.

Carl Gustav Jung, insanlar motivasiya etməsi, stressli, kədərli anlarında kömək etməsi baxımından dini, psixoterapiyanın en inkişaf etmiş variantı olaraq görür (12, s. 20)

İnsanların empatiyası nə qədər çox olarsa, onların dini dəyərləri də bir o qədər güclənər və daxililəşər. Bu dini dəyərlər dostluq, sevgi və tolerantlıq hisslərini aktivləşdirməklə insanları eqoizmdən, maddi maraqlardan, kin, nifrət və paxıllıqdan uzaqlaşdıracaq və bu da insanlarda empatiyaya səbəb olacaq və digərini anlamağımıza səbəb olacaq (3, s. 40-41).

Empatiya sadəcə qarşı tərəfin hisslərini paylaşmaq deyil, həm də bu hisslərə uyğun reaksiyalar vermək deməkdir. Empatiya başqalarına kömək etmək, səxavətli olmaq və paylaşmaq kimi davranışlar üçün zəruri şərtdir. Empatiya fərdləri digər insanların hisslərini, istəklərini və ehtiyaclarını başa düşmək və onlara kömək etmək üçün istiqamət verməklə ehtiyacı olan insanlara kömək etməyə sövq edir (12, s. 22). Empatiya, mənəvi dəyərlərimizi dərk etmək və ictimailəşmək nöqtəsində həyatımızı hər tərəfdən əhatə etməklə mənəviyyatımızın əsasını təşkil

edir.

Başqaları ilə empati qura bilən insan, tənqid, mühakimə və ittiham nitqi şəklində heç bir münaqişəyə girmədən sağlam münasibətlər qurmağın yollarını tapa bilər (8, s. 90). Başqalarının hüquqlarına riayət etmək və həssas olmaq, digər insanları düzgün başa düşmək üçün sahib olmalı olduğumuz empatiya ilə əlaqəli davranışlardır. Nəticə olaraq deyə bilərik ki, empatiya həm şəxsi, həm də ictimai təsirlər baxımından dəyərli və faydalı insan davranışıdır.

Empatiyanın mənbəyinə müxtəlif yanaşmalar var. Çünki empatiya intuisiya və təxəyyül əsasında kəmiyyətcə müəyyən edilə bilməyən bir potensial olsa da, bəzilərinə görə beynin funksiyalarından biri kimi neyrobiokimyəvi infrastruktura malikdir (4, s. 34).

Psixoloji anlayış kimi empatiyaya verilən mənanın həm də dini məzmun daşıdığını desək, yanılmarıq. Çünki Allaha qarşı vəzifə və məsuliyyətləri yerinə yetirməkdə əsas məqam insanları ətrafdakı insanlara və digər varlıqlara qarşı öhdəliklərində daha həssas etmək və onları ruhən inkişaf etdirməkdir (7, s. 12)

Bu mənada ictimai dəyərlərin yaranmasında və tərbiyəsində mühüm mənbə olan din öz insanlarından bütün varlıqlarla münasibətlərini sevgi, tolerantlıq, anlayış və mərhəmət üzərində qurmağı, insanlarla səmimi münasibət qurmağı, eqoist davranmamağı, bir-birinin vəziyyətini anlamağı, insanı yaradanına görə sevməyi və çətin vəziyyətdə olan insanların bir-birinin köməyinə gəlməsini istəyir (3, s. 45).

Empatiyanın əsasını təşkil edən "insanların öz xoşbəxtlik və sıxıntıları kimi, başqalarının xoşbəxtliyini və sıxıntısını da öz şüurunda və duyğularında yaşaya bilər" anlayışı, sevginin əsasını vurğulayan dinin tövsiyələrini xatırladır. Başqası ilə hər hansı bir münasibətdə "özünüzlə necə davranılmasını istəyirsinizsə, başqalarına da elə davranın (1, s. 79).

İlk növbədə mənəviyyata söykənən cəmiyyət qurmağı hədəfləyən bütün dinlər bütün insanların sülh, əmin-amanlıq içində yaşadığı bir dünya yaratmaq istəyirlər. (Uluç-Ankaraligil) Mənliklə digəri arasında sağlam zəmində əlaqə quraraq, "başqasını" başa düşülməyə və ünsiyyətə layiq bir subyektdən kənarlaşdırılacaq bir obyekt olmaqdan qaldıran dinlər, bərabərlik hissi ilə emosional, əqli və əxlaqi yaxınlaşmanı təmin edir və bu mənada empatik ünsiyyətin əsaslarını qoyur (11, s. 10).

Fərdin varlığa aid etdiyi məna çərçivəsində əvvəlcə özünü tanımasını, sonra isə məsuliyyət hissinə çatmasını təmin edən empatik bacarığın bu məna məzmunu ilə az qala dindarlığın bir elementi olduğunu söyləmək mümkündür. (Özcan, 2007) Çünki bütövlükdə tanımaq, hiss etmək, anlamaq və tərənnüm etməyi ehtiva edən empatik ünsiyyət, insanın dindar olma prosesində mənimsəməli olduğu ünsiyyət dilinin fərqli bir ifadəsidir.

Din ortaq hiss etmək baxımından cəmiyyətlərin ən mühüm birləşdirici ünsürüdür. Bütün dinlərdə "yoxsullara kömək et", "başqalarını sev", "yaxşı işlər gör", "özünlə necə davranılmasını istəyirsənsə, başqalarına da elə rəftar et" kimi sosialyönlü nəsihətlərə rast gəlmək mümkündür. Xeyirxah olmaq dindar olmağı tələb etmir və dindar insan özünü elə zənn etsə də, tam xeyirxah olmaya bilər. Hər bir fərd ayrı bir dünyadır.

**Məqalənin aktuallığı.** Empatiya münaqişələrimizi həll etmək, düzgün başa düşmək və başa düşülmək üçün həyatımızda tez-tez rastlaşdığımız bir anlayışdır. Din bizə insanları başa düşməyi, onları dinləməyi tövsiyə edir. Empatiya ilə dinin uzlaşması və bir-birinə təsir etməsi insanların ünsiyyət texnikalarının artması ilə bu daha da aktual bir mövzuya çevrilib.

**Məqalənin elmi yeniliyi.** Getdikcə artan müharibələr, yaşamaq təlaşı insanlar arasında empatiyanın səviyyəsini azaldır. Bütün dinlərin ortaq bir nöqtəsi var ki, bu da yaradılanların bir-birlərini sevməsi və anlamasıdır. Din və empatiyanı ayrı-ayrı ünsür kimi öyrənməklə və bir-birinə təsirini anlamaqla iki ünsürün də insan həyatındakı rolunu dərk edə bilərik. Elmi

ədəbiyyatlarda bu mövzuya az toxunulmaqlarını nəzərə alaraq empatiya və din anlayışının, eləcə də onların bir-birinə təsirinin öyrənilməsi çox əhəmiyyətlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bildiyimiz kimi hal-hazırki dövrdə Azərbaycan ədəbiyyatında empatiya və din anlayışı səthi öyrənilmişdir. Bunu nəzərə alaraq məqalə empatiya və din haqqında təsəvvürlərin daha da dərinləşməsi baxımından vacib əhəmiyyət kəsb edir. Empatiya və din anlayışlarının təhlil edilməsi, bir-birinə təsirinin araşdırılması məqsədilə aparılan tədqiqat işlərinin nəticələri, ümumiyyətlə empatiya və dinin təsirinin öyrənilməsi baxımından müəyyən praktik biliklər verməkdə mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Ayten A. (2009), Prososyal Davranışlarda Dindarlık ve Empatinin Rolü, (Tamamı Yayımlanmamış Doktora Tezi), M. Ü. Sosyal Bilimler Enstitüsü, İstanbul.

2. Dökmen, Ü. (2005). İletişim Çatışmaları ve Empati, 33. Baskı, Ankara: Sistem.

3.Çetin, Ü. F. (2010). Ortaöğretim Düzeyi Gençlerde Dindarlık - Empati İlişkisi (Isparta Örneği). Yüksek Lisans Tezi, Isparta, Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü.

4. Göka, E. (1990), Birbirimizi Anlamaya Çalışırken Beynimizde Neler Oluyor, Bilim ve Teknik Der gisi, 23, 266, 34-36.

5. Gülseren, Ş. (2001), Empati: Tanımı ve Kullanımı Üzerine Bir Gözden Bir Gözden Geçirme, Türk Psikiyatri Dergisi, 12, 2, 133-145.

6. Özcan, Z. (2007). Empati ve Dini İnanç Arasındaki İlişki Üzerine Bir Araştırma. Yüksek Lisans Tezi, Erzurum, Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü.

7. Kılıç, R. (2005), Ayet ve Hadisler Işığında İnsan ve Ahlak, Ankara: Türkiye Diyanet Vakfı.

8. Özcan, Z. (2007), Empati ve Dinî İnanç Arasındaki İlişki Üzerine Bir Araştırma, Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü, (Yayımlanmamış Yüksek Lisans Tezi), Erzurum.

9. Özcan, Z. (2016), Empati ve Dindarlık Arasındaki İlişki, Karabük Üniversitesi İlahiyat Fakültesi, Karabük.

10. Yurduseven, R. (2018). Hz. Peygamber'in Hadislerinde Empati. Yüksek Lisans Tezi, Çorum, Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü.

11. Uluç, G. Ankaralıgil, N. (2008), Duygusal Zeka ve Ötekiy'yi Anlamak: DoğuBatı Üzerine Bir Çalışma, Duygusal Zeka Ve İletişim, II. Uluslar arası Sempozyum, İzmir

12. Uzun, Y. (2014). Din Öğretiminde Empati Becerisine Dayalı Öğretim Yöntem ve Tekniklerinin Kullanılması. Doktora Tezi, İstanbul, Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü.

**Г.Х. Тапдыгова**

## Влияние религиозных идей на эмпатию

## Резюме

Статья призвана раскрыть связь между эмпатией и религиозностью. Понятие эмпатии как психологическое понятие имеет и религиозное содержание. В целом чувство, понимание и эмпатическое общение — это разные выражения языка общения, которым

человек должен овладеть в процессе становления религиозным. Религия является наиболее важным объединяющим элементом общества с точки зрения чувства общности. Чем больше у людей сопереживания, тем сильнее и внутренне будут их религиозные ценности. Активизируя чувства дружбы, любви и терпимости, эти религиозные ценности отвратят людей от эгоизма, материальных интересов, ненависти, зависти и ревности, что приведет к сочувствию и пониманию.

**G.Kh. Tapdigova**

## The effect of religious ideas on empathy


## Summary

The article is designed to reveal the connection between empathy and religiosity. The concept of empathy as a psychological concept also has a religious content. As a whole, feeling, understanding, and empathic communication are different expressions of the language of communication that a person must master in the process of becoming religious. Religion is the most important unifying element of societies in terms of feeling common. The more people's empathy, the stronger and more internal their religious values will be. By activating feelings of friendship, love, and tolerance, these religious values will turn people away from selfishness, material interests, hatred, envy, and jealousy, which will cause people to empathize and understand each other.


**Redaksiyaya daxil olub:** 25.04.2022